# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ F-5

Bakı şəhəri

"13" yanvar 2021 il

**Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə Seçki Komissiyasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 5.5-ci bəndinin və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun 6.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərinə əsasən vətəndaş cəmiyyəti institutlarının təqdim etdiyi təklifləri nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə aşağıdakı tərkibdə Seçki Komissiyası yaradılsın:

| | | |
|---|---|---|
| Elxan Kərimov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparat rəhbərinin müavini – Daxili nəzarət şöbəsinin müdiri; |
| Əsəd İsmayılov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət qulluğu və kadrlar şöbəsinin müdiri; |

Mürvət Babayev - Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsinin müdir müavini;

Təranə Gözəlova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Daxili nəzarət şöbəsinin aparıcı məsləhətçisi;

Nurməmməd Məmmədov - "Beynəlxalq Ekoenergetika Akademiyası" İctimai Birliyinin Enerji effektivliyi və bərpa olunan enerji departamentinin rəhbəri;

Şahin Nəsrullayev - "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin nümayəndəsi;

Nemət Qasımov - "Azərbaycan mühəndis və energetiklər cəmiyyəti" İctimai Birliyinin İdarə Heyətinin üzvü;

Ceyhun Axundov - "SOCAR-Media" İctimai Birliyinin üzvü;

Nüsrət Qasımov - "Azad İstehlakçılar" İctimai Birliyinin nümayəndəsi.

2. Ümumi şöbə bu əmrin surətinin Seçki Komissiyasının üzvlərinə çatdırılmasını təmin etsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə olunsun.

*Əsas: "Azad İstehlakçılar İctimai Birliyinin 2020-ci il 9 oktyabr tarixli, XM/85 nömrəli, "Beynəlxalq Ekoenergetika Akademiyası" İctimai Birliyinin 2020-ci il 16 noyabr tarixli elektron, "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin 2020-ci il 23 dekabr tarixli, 14/20 nömrəli, "Azərbaycan mühəndis və energetiklər cəmiyyəti" İctimai Birliyinin 2020-ci il 23 dekabr tarixli, 09-23/12/20 nömrəli və "SOCAR-MEDİA" İctimai Birliyinin 2020-ci il 24 dekabr tarixli, SM/005-20 nömrəli məktubları.*

**Nazir** **Pərviz Şahbazov**